# İQTİSADİYYAT

UOT 339.9; 339.9:061(100)

## DÖVLƏTİN İQTİSADİ TƏHLÜKƏSİZLİYİ AZƏRBAYCANIN MÜSTƏQİLLİYİNİN ƏSAS NAİLİYYƏTİDİR

**H.H.ASLANOV, N.İ.ƏLİYEVA**
***Bakı Dövlət Universiteti***
***Dosent1966@mail.ru***

*İqtisadi müstəqilliyin mühüm tərkib hissəsi iqtisadi təhlükəsizlikdir. İqtisadi təhlükəsizlik iqtisadiyyatın elə vəziyyətidir ki, bu zaman dayanıqlı iqtisadi artım, ictimai ehtiyaclar, yüksək keyfiyyətli idarəçilik, iqtisadi maraqların qorunması milli və beynəlxalq səviyyədə səmərəli şəkildə təmin olunur.*

*İqtisadi təhlükəsizlik problemi dövlətin yaradılması ilə eyni zamanda yaranır və milli təhlükəsizliyin onurğa sistemini təşkil edir.*

*İqtisadi təhlükəsizliyin əsas göstəriciləri – ÜDM-un artımı, iqtisadiyyatın quruluşu və rəqabət qabiliyyəti, həyat səviyyəsi və keyfiyyəti, inflyasiya sürəti, işsizlik norması, idxaldan asılılıq, daxili və xarici borcların səviyyəsi və s.-dir. Bütün bu və digər məsələlər məqalədə ətraflı araşdırılmışdır.*

**Açar sözlər:** iqtisadi təhlükəsizlik, milli mənafelər, iqtisadi siyasət, milli iqtisadiyyat, milli iqtisadi inkişaf

Müasir dövrdə respublikamızda bazar prinsiplərinə əsaslanan yeni iqtisadi sistem formalaşmışdır. Sistem dəyişiklikləri ilə əlaqədar olaraq həyata keçirilmiş islahatlar nəticəsində ölkənin sosial-iqtisadi sferasında ciddi dəyişikliklər baş vermişdir. Bu dəyişikliklər isə, ilk növbədə, ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunması məsələsini ön plana çıxartmışdır. Məhz iqtisadi müstəqilliyin mühüm tərkib hissəsi iqtisadi təhlükəsizlikdir.

İqtisadi təhlükəsizlik iqtisadiyyatı elə vəziyyətdədir ki, bu zaman dayanıqlı iqtisadi artım, iqtisadi maraqların qorunması milli və beynəlxalq səviyyədə səmərəli şəkildə təşkil olunur. İqtisadi təhlükəsizlik problemi dövlətin yaradılması ilə eyni vaxtda yaranır və milli təhlükəsizliyin təmin olunmasının konkret meyarları mövcuddur ki, bunlar iqtisadi maraqlar əsasında müəyyən olunur. Bu, onunla bağlıdır ki, iqtisadi təhlükəsizliyin təmin olunması ölkə

iqtisadiyyatının inkişafına, cəmiyyətin sosial iqtisadi sabitliyinin təmin olunmasına və ölkənin iqtisadi maraqlarının reallaşdırılmasına şərait yaratmalı, ona təsir göstərən mənfi amilləri neytrallaşdırmalıdır. İqtisadi maraqlar isə yalnız iqtisadiyyatın səmərəli fəaliyyət göstərdiyi bir şəraitdə reallaşır.

İqtisadi təhlükəsizlik kriteriyası iqtisadiyyatın vəziyyətini qiymətləndirən bir anlayışdır. Çünki ölkənin iqtisadi təhlükəsizliyi iqtisadi inkişafın səviyyəsindən asılıdır. İqtisadi təhlükəsizliyin mahiyyəti burada əks olunur.

Təhlükəsizliyin kriterial qiyməti asağıdakıları özündə birləşdirir:

- resurs potensialı və onun inkişaf etdirmək imkanı;
- əmək kapitalı və digər resurslardan səmərəli istifadə etmə səviyyəsi, onun inkişaf etmiş qabaqcıl ölkələrlə müqayisədə hansı səviyyədə olması, habelə daxili və xarici təhlükəni minimuma endirmək imkanı;
- iqtisadiyyatin rəqabət qabiliyyəti;
- suverenlik, müstəqillik və xarici təhlükənin qarşısını almaq imkanı;
- sosial sabitliyi və sosial ziddiyyəti həll etmək qabiliyyəti.

Göründüyü kimi ölkənin sosial-iqtisadi inkişafının dinamikliyi onun iqtisadi təhlükəsizliyinin təmin edilməsi üçün ilkin zəruri şərtdir. Belə ki, ölkənin iqtisadiyyatının davamlı və dayanıqlı inkişafını təmin etmək üçün inkişaf prosesində qarşıya çıxan problemlər öz həllini vaxtında tapmalıdır. Əks halda, bu problemlər sosial iqtisadi inkişafın buxovuna çevrilir və ölkə üçün daim qaynaqlanan təhlükə mənbəyinə çevrilir. Bu problemlər mərhələli şəkildə həll olunmalı, mütəmadi olaraq yeniləşən iqtisadi mexanizm vasitəsilə və inkişafın təkamül yolu ilə daha yüksək mərhələyə qalxmalıdır [7, 157].

İqtisadi təhlükəsizliyə mənfi təsiri aşkara çıxarmaq və onu proqnozlaşdırmaq üçün ölkənin iqtisadi inkişaf səviyyəsinə nəzarət etmək zəruridir. Bunun üçün göstəricilərin sərf-nəzər edilməsi və onların iqtisadi təhlükəsizliyinin təmin edilməsinə görə əhəmiyyəti nəzərə alınmalıdır. Bu göstəricilər tədqiq edilərkən ona kompleks şəkildə yanaşılmalı və onun əsasında iqtisadi təhlükəsizliyin "diaqnozu" müəyyənləşdirilməlidir. Yalnız bu iş başa çatdıqdan sonra iqtisadi təhlükəsizliyin qarşısının alınması üçün lazımi tədbirlər görülməlidir.

Qeyd edək ki, iqtisadi təhlükəsizliyin əsas göstəriciləri asağıdakılardır: ümumi daxili məhsulun artımı, iqtisadiyyatın strukturu və rəqabət qabiliyyətliliyi, həyat səviyyəsi və keyfiyyəti, inflyasiya sürəti, işsizlik norması, idxaldan asılılıq səviyyəsi və s. Dövlətin iqtisadi təhlükəsizliyi probleminin mahiyyəti və əhəmiyyətini müəyyən etmək üçün iqtisadi ədəbiyyatda təxminən 25 göstərici təhlil edilir. Onlar arasında ən vacibləri asağıdakılardır: adambaşına ÜDM, digər ölkələrlə müqayisədə onun dinamikası, ÜDM-in tərkibində elmi tədqiqat işləri və təcrübə konstruktor işlərinin payı, beynəlxalq standartlar baxımından yoxsulluq səviyyəsi; inflyasiya səviyyəsi; dövlət, o cümlədən xarici borcun ÜDM-a və büdcə gəlirlərinə nisbəti; idxalatın ÜDM-a nisbəti istehlak məhsullarının tərkibində idxal edilən ərzağın xüsusi çəkisi və s. Ölkənin təhlükəsizliyinin təmin edilməsində valyuta münasibətlərinin düzgün qurulmasının böyük

əhəmiyyəti vardır. Çünki pul tədavülünün qaydaya salınması, qiymət siyasəti, valyuta məzənnəsi, müxtəlif valyuta əməliyyatlarının aparılması tarazlı iqtisadi inkişafın mühüm şərtlərindən biridir. Bu sahədə baş verə biləcək hər hansı pozuntu halları ölkənin iqtisadi inkişafına, onun iqtisadi təhlükəsizliyinə ciddi zərbə vura bilər. Bu sferada baş verən dəyişikliklər, deformasiya halları obyektiv və subyektiv səbəblərdən olur. Həmin dəyişikliklər əsasən aşağıdakı istiqamətlərdə və müxtəlif valyuta məzənnəsi rejimlərində özünü göstərə bilər: Məsələn, rəsmi qeydə alınmış valyuta məzənnəsi şəraitində xammalın qiymətinin aşağı düşməsi ixrac edənlərin qazancının aşağı düşməsinə və beləliklə də, ticarət balansının aktiv saldosunun azalmasına gətirib çıxara bilir. Bu hal başqa bir formada, yəni kapitalın qanunsuz ixracı halında baş verə bilər və nəticədə ödəniş balansının qıtlığı və digər mənfi hallara səbəb olar.

Müstəqil dövlətin iqtisadı mənafelərinin qorunması onun qarşısında duran ən vacib məsələlərdəndir. İqtisadi mənafelər məhz iqtisadi təhlükəsizlik amilləri vasitəsilə qorunur. İqtisadi təhlükəsizlik anlayışını dərk etmək üçün onun əsas komponentləri (amilləri) müəyyən olunmalıdır. Bu komponentlərə ilk növbədə milli dövlətin maraqlarının qorunması (həm ölkə daxilində, həm də ölkədən kənarda), dövlət suverenliyini və müstəqil inkişafın qorunub saxlanması dövlətin beynəlxalq mövqeyi, onun dünya əmək bölgüsündə, ixtisaslaşması və koperasiyalaşması, dünya ticarətində, beynəlxalq maliyyə bank sistemində, qiymətli kağızlar, mal və xidmətlər bazarında ölkənin özünü müdafiə və inkişafı daxildir.

Dövlətin iqtisadi təhlükəsizliyinin mahiyyətini aydınlaşdırmaq üçün onun inkişaf və sabitlik kimi anlayışlarla əlaqəsini araşdırmaq lazımdır. İnkişaf iqtisadi təhlükəsizliyin əsas komponentlərindən biridir. Belə ki, iqtisadi inkişaf onun artma imkanını, daxili və xarici təhlükəsiz müqavimət gücünü artırmağa imkan verir. Sabitlik də öz növbəsində iqtisadiyyatın vahid bir sistem kimi fəaliyyət göstərməsinin əsas amilidir ki, bütövlükdə sabitlik iqtisadi təhlükəsizliyin xarakterini müəyyən edir. Digər tərəfdən, iqtisadiyyatın sabitliyi onun elementlərinin möhkəmliyi və etibarlığını, sistemdaxili üfüqi və şaquli meyllərini, daxili və xarici təsirə davam gətirmə qabiliyyətini əks etdirir. İqtisadi təhlükəsizlik özü daxili və xarici, gözlənilməz və çətin proqnozlaşdırılan amillərin təsiri şəraitində inkişaf edib yaşamaq qabiliyyətini əks etdirən amillərə də ayrılırlar.

İqtisadi təhlükəsizliyin mahiyyətini milli maraqların müdafiəsinə sosial yönümlü siyasətə, hətta daxili və xarici proseslərin qeyri-əlverişli inkişaf şəraitində müəyyən qədər qoruyucu potensialına təminat verən iqtisadiyyatın və digər qeyri-iqtisadi dövlət institutlarının vəziyyəti kimi müəyyən etmək olar. Başqa sözlə, iqtisadi təhlükəsizlik təkcə milli maraqların qorunması yox, hökumət idarələrinin cəmiyyətdə sosial-siyasi sabitliyinin saxlanması, yerli istehsalçıların mənafelərinin iqtisadı inkişafa uyğun olaraq qorunması və reallaşdırılması mexanizmini yaratmaq qabiliyyəti və onun təmin olunmasıdır.

Dövlətin iqtisadi və bütövlükdə milli təhlükəsizliyi üçün milli maraqları, strateji prioritetləri nəzərə alan əsas inkişaf ideologiyası olmalıdır.

Ölkədə iqtisadi inkişafın konsepsiyası, sənaye və elmi-texniki artım olmadan iqtisadi təhlükəsizliyin, büdcə kəsirinin artırılması, əhalinin əlverişli məşğulluq səviyyəsinin təmin olunması, əhalinin həyat səviyyəsi və sosial müdafiəsinin yüksəlməsi kimi məsələləri həll etmək olmaz.

Müxtəlif regionlarda və xaricdə baş verən proseslər millətin durumuna, onun gələcək inkişafına əsaslı təsir göstərə bilər. Bu isə öz növbəsində milli məqsədlərin müəyyən edilməsinə və dərk edilməsinə təsir göstərir. Bununla əlaqədar daxili və xarici təhlükəsizlik fərqləndirilir. Xarici təhlükənin müəyyən edilməsi isə millətin dünyada, coğrafi və geostrateji yeri və rolu ilə əlaqədardır.

Milli təhlükəsizlik sistemi - dövlət konistitusiyasında nəzərdə tutulmuş hüquqi norma və aktların, qanunverici və icraedici orqanların milli maraqların təmin olunmasına istiqamətlənmiş metodların və s. yaradılmış sistemidir. Subyektin təşkiledici funksiyası ilə əlaqədar olaraq təhlükəsizliyin dövlət sistemi bir-birindən fərqləndirilir. Bunların hər ikisi milli maraqlara qarşı real və potensial təhlükələrin aşkar edilməsində onlarla mübarizə tədbirlərinin hazırlanmasında, həyata keçirilməsində biri birini tamamlayır, biri birinə nəzarət edirlər. Milli təhlükəsizlik sistemində yüksək effektivliyə o vaxt nail olunur ki, beynəlxalq və regional təhlükəsizlik sistemi qarşılıqlı əlaqədə fəaliyyət göstərmiş olsun [8, 85].

Azərbaycanın milli təhlükəsizlik konsepisiyasının əsas elementlərindən biri iqtisadi təhlükəsizlikdir. Azərbaycanın iqtisadi təhlükəsizliyi onun milli təhlükəsizlik sisteminin bir hissəsi olub, tərkibinə daxildir. Milli təhlükəsizlik iqtisadi təhlükəsizlikdən daha geniş anlayışdır. Bunların hər ikisi dövlətin ümumi strategiyasından qidalanır. Azərbaycanın milli təhlükəsizlik konsepsiyası işlənib hazırlanarkən o, iqtisadi sahədə Azərbaycanın milli mənafeyinə uyğun konkretləşdirilir. Azərbaycan dövləti iqtisadi təhlükəsizlik konsepsiyasını hazırlayarkən iki yüz ilə yaxın müstəmləkə olmasını, onun törətdiyi fəsadları, 70 il istehsalı səmərəli təşkil edə bilməyən inzibati-amirlik sistemində yaşamasını və onun müstəqilliyini istəməyən düşmən dövlətlərlə əhatə olunmasını nəzərə almalıdır. Çünki bu reallığı nəzərə almadan nə dövlətin daxilində, nə də beynəlxalq səviyyədə heç bir vəzifəni yerinə yetirmək olmaz.

Milli təhlükəsizlik iqtisadi təhlükəsizlikdən başqa, özündə həm də hərbi, ekoloji, informasiya, sosial, energetika, milli-mənəvi dəyərlər və digər təhlükəsizlik formalarını birləşdirir. Milli təhlükəsizliyin bütün növləri bir-birilə qarşılıqlı əlaqədə olmaqla onların biri digərinə müsbət yaxud da mənfi təsir göstərir.

İqtisadi artım tempinə təsir edən və bununla da iqtisadi təhlükəsizliyin vəziyyətini əvvəlcədən müəyyən edən əsas amillərdən biri də iqtisadi siyasətdir. İqtisadi siyasətin həyata keçırılməsində dövlətin iqtisadi proseslərdə iştirakı dərəcəsinə görə ölkələr bir-birindən fərqlənir. İstənilən dövlətin iqtisa-

di siyasətinin əsas istiqamətləri dövlət sahibkarlığı büdcə siyasəti, pul siyasəti, valyuta siyasəti, xarici ticarət siyasətindən ibarətdir. Onu da qeyd edək ki, dövlətin iqtisadi siyasətinin istiqamətlərini xarakterizə etdikdə görərik ki, ümumi daxili məhsulda dövlət müəssisələri məhsullarının xüsusi çəkisi artdıqca iqtisadi artım tempi aşağı düşür.

Bazar iqtisadiyyatı və sahibkarlıq fəaliyyəti, Amerika iqtisadçısı Leontiyevin ifadə etdiyi kimi iqtisadiyyatın sükanıdır. Sükanlı idarəetmə olmadan bazar sınaqlar və səhvlərlə hələ uzun müddət öz inkişaf istiqamətini və trayektoriyasını axtaracaqdır.

Məlum olduğu kimi, milli iqtisadiyyatın inkişaf strategiyası, hər şeydən əvvəl, dövlətin düzgün və səmərəli iqtisadi siyasətinə əsaslanmaq şərtilə ölkədə sosial-iqtisadi münasibətlərin inkişafına təhlükələr yaradan daxili və xarici amillərdən müdafiəsini təmin etməlidir. Tədqiqatçıların fikrincə, makro-, mikro- və mezosəviyyələrdə bu və ya digər təsərrüfat qərarlarının (layihələrinin) reallaşdırılması zamanı istənilən yeniliyin iqtisadi təhlili potensial milli təhlükəsizlik müddəasına əsaslanmalıdır, eyni zamanda sosial-iqtisadi və ekoloji təhlükəsizliyə xüsusi diqqət yetirilməlidir. Buna görə də, birincisi, tədqiq olunan obyektin üstünlükləri, yaxud da çatışmazlıqlarının iqtisadi təhlili mütləq innovasiya layihəsinin, yaxud da qərarının verilən variantının reallaşdırılmasının məqsədəuyğunluğu haqqında ekspert rəyi qəbul olunanadək həyata keçirilməlidir; ikincisi, səmərəliliyin təhlilinin bütün mərhələlərində ölkənin sosial-iqtisadi, hərbi, ekoloji, demoqrafik və s. təhlükəsizliyinin təmin olunmasını nəzərə almaq və bu layihənin reallaşdırılmasının mümkün ola biləcək mənfi nəticələrini aradan qaldırmaq lazımdır; üçüncüsü, yüksək iqtisadi səmərəliliyin təmin olunması üçün dövlətin, regionların, sahibkar strukturlarının və bütövlükdə cəmiyyətin maraqlarının optimal səciyyəsinə nail olmaq xüsusi əhəmiyyət kəsb edir. Bunun üçün idarəetmə və təsərrüfatçılığın bütün səviyyələrində ölkənin sosial-iqtisadi strategiyası, proqramları və layihələrinin elmi-iqtisadi əsaslandırılmasının ən yüksək səviyyəsi tələb olunur.

İstənilən layihənin reallaşdırılması o zaman məqsədəuyğun olar ki, bundan əldə olunan ictimai mənfəət, bütün digər eyni şərtlər altında, ictimai məsrəflərdən çox olsun.

Milli iqtisadiyyatın inkişaf strategiyası ölkənin sosial-iqtisadi inkişafının bütün cəhətlərini özündə əks etdirməlidir. Bu, başlıca məqsədə nail olmaq yollarının strateji inkişafını elmi cəhətdən əsaslandırılmış şəkildə qabaqcadan görülməsi, dərk edilməsi vahid kompleks proses kimi başa düşülməlidir.

Belə ki, yeni cəmiyyətin maddi-texniki bazasının və istehsal münasibətlərinin yaradılması, inkişaf etdirilməsi milli iqtisadiyyatın inkişaf strategiyasının əsas istiqamətlərini təşkil etməlidir. Odur ki, milli iqtisadi inkişaf strategiyasının istiqamətlərindən biri sosial təbəqələrin, qrupların və bütövlükdə, cəmiyyətin mənafelərinin düzgün əlaqələndirilməsidir.

Aydındır ki, iqtisadi mənafelər təkcə iqtisadi siyasətin özünün həyata

keçirilməsi gedişatında reallaşmır. Belə ki, onlar ancaq dövlətin bütün siyasətində əməli surətdə həyata keçirilir.

Bazar iqtisadiyyatı şəraitində dövlətin iqtisadi siyasətinin rolu və əhəmiyyəti, öncə qeyd edildiyi kimi, bir daha artmış olur ki, bu da obyektiv olaraq, hər şeydən əvvəl, yeni istehsal münasibətlərinin formalaşması ilə bağlıdır.

Müasir mərhələdə dövlətin iqtisadi siyasətinin əsas istiqamətləri onunla müəyyən edilir ki, cəmiyyətimiz bazar iqtisadiyyatı quruculuğunun keçid mərhələsində olduğundan, daha çox sosial-iqtisadi problemlər həll etməli olur.

Təhlükəszliyin təmin edilməsi çox çətin və mürəkkəb prosesdir. O qarşılıqlı əlaqə və qarşılıqlı asılılıqda olan bir neçə sahəni əhatə edir. Buraya şaquli istiqamətdə, yəni cəmiyyətin və dövlətin təhlükəsizliyinin təmin edilməsi daxildir. İqtisadi təhlükəsizliyin təmin edilməsi predmeti eyni zamanda üfüqi səviyyədə olan münasibətləri də əhatə edir. Buraya siyasi, hərbi, informasiya, elmi-texniki və s. sahələrin təhlükəsizliyinin təmin edilməsini də daxil etmək lazımdır [9, 226].

Təhlükəsizlik, hər şeydən əvvəl, vətəndaşın cəmiyyətin və dövlətin mühüm həyatı mənafelərini əhatə etməlidir. Onların tələbatlarının daha dolğun və etibarlı ödənilməsi ölkənin təhlükəsizliyinin təmin olunmasından asılıdır. Təhlükəsizliyə həm də milli həyat tərzi daxildir. Beynəlxalq iqtisadi inteqrasiyanın və qloballaşmanın geniş miqyas aldığı indiki şəraitdə millətin özünəməxsusluğunun qorunması olduqca zəruri amildir. Belə ki, hər millətin tarixən formalaşmış mənəviyyatının və əxlaqının qorunub saxlanılması dövlətin əsas vəzifələrindən biridir.

İqtisadi təhlükəsizlik problemlərini araşdıran tədqiqatçılar iqtisadi prosesləri müxtəlif aspektlərdən nəzərdən keçirərkən ayrı-ayrı ölkələrdə mövcud olan şəraitə görə təsnifləşdirmə aparırlar və haqlı olaraq bu dövlətlər içərisindən keçid iqtisadiyyatlı ölkələri ayırırlar. Sanki bununla həmin ölkələrdə bu problemin daha kəskin və aktual olduğunu qeyd etmək istəyirlər.

S.V.Stepaşin qeyd edir ki, iqtisadi təhlükəsizliyin obyektləri sırasına şəxsiyyət. cəmiyyət, dövlət və iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi çərçivəsində institusional münasibətlər sistemi də daxil olmaqla iqtisadi sistemin əsas elementləri aiddir [2, 608; 639]. Müəllif ölkədə iqtisadi prosesləri müxtəlif aspektlərdən tədqiq edərək asağıdakıları ayırır:

- siyasi baxımdan hərbi qüvvə istifadə olunmaqla müxtəlif miqyaslı konfliktlər şəraitində iqtisadi təhlükəsizlik;
- opponent dövlətlə kəskin qarşıdurma şəraitində iqtisadi təhlükəsizlik;
- izolyasiya, yaxud da əksinə, dünya iqtisadiyyatına yüksək səviyyədə inteqrasiya şəraitində iqtisadi təhlükəsizlik;
- keçid iqtisadiyyatı şəraitində iqtisadi təhlükəsizlik.

İqtisadiyyatın inkişaf istiqamətlərində onun iki mühüm tərkib hissəsi olan iqtisadi strategiya və taktikanın vəhdətliyini və xüsusiyyətlərini düzgün əlaqələndirmək lazımdır.

İqtisadi siyasətin tərkib hissəsi olan strategiya və taktikanın başlıca vəzifə və məqsədlərinin ümumiliyi vəhdət prinsiplərinin məzmununu birləşdirir. Digər tərəfdən, onların hər birinin müəyyən spesifik xüsusiyyətləri də vardır.

Ümumiyyətlə, perspektiv dövr üçün ölkənin sosial-iqtisadi konsepsiyasının işlənib hazırlanması iqtisadi siyasət xəttinin elmi cəhətdən düzgün əsaslandırılmasından bilavasitə asılıdır. Bu cür konsepsiya fundamental xarakterli, əsaslı nəzəri ümumiləşdirmələrin və onun aparıcı meyllərinin təhlili nəticəsidir.

Konsepsiyanın işlənib hazırlanması dövlətin iqtisadi strategiyasının və onun nəzəri bünövrəsinin yaranması üçün zəmin yaratmış olur.

Milli təhlükəsizlik konsepsiyalarının təhlilini aparan müəlliflərin tədqiqatları göstərir ki. mühüm nəzəri əsaslardan biri milli təhlükəsizliyin gücü haqqında təsəvvürlərdir. Milli təhlükəsizlik konsepsiyası milli mənafelər konsepsiyaları ilə o qədər sıx əlaqəli surətdə işlənib hazırlanmışdır ki, müəyyən mərhələlərdə bunlar analoji, eyni anlayışlar kimi nəzərdən keçirilmişdir. Hər iki anlayış milli dövlətçilik ideyası yaranmadan formalaşa bilməzdi. Bu ideya isə, qəribə də olsa, yeni bir məfhum olaraq, əvvəlki dövrlərə deyil, keçən əsrin sonuna və bu əsrin əvvəllərinə aiddir. Proxorenkoya görə, «milli təhlükəsizlik ölkənin həyatına təsir edən xarici və daxili şərtlərin elə uyğunluğudur ki, bu zaman kritik xarakterli təhlükələr mövcud deyil və eyni zamanda bu təhlükələr yaranarsa, dövlətin onlara tam adekvat reaksiya vermək qabiliyyəti qorunub saxlanılır» [3, 70].

Qeyd etmək lazımdır ki, ölkənin sosial-iqtisadi inkişafının uzunmüddətli konsepsiyası əsasında və ona uyğun olaraq nisbətən daha qısa müddət üçün inkişaf konsepsiyası da müəyyən edilməlidir. Bu konsepsiya bazar iqtisadiyyatına xas olan ümumi cəhətləri, həm də müvafiq dövrün xüsusiyyətlərini nəzərə almalıdır.

Fikrimizcə, milli iqtisadiyyatın inkişaf strategiyasını müəyyənləşdirərkən, ölkənin nə kimi təbii, yeraltı və yerüstü sərvətlərə malik olmasına, yerləşdiyi ərazi amillərinə xüsusi diqqət yetirilməlidir.

Tarixi təcrübələr qeyri-şərtsiz sübut edir ki, Azərbaycan Respublikasının zəngin təbii resurslara malik olması onun Qərblə Şərqi əlaqələndirən əlverişli dəhlizdə yerləşməsi siyasi və iqtisadi təhlükələrə məruz qalmasının əsas səbəblərindən biri olmuşdur.

Milli iqtisadiyyatın inkişaf strategiyasının əsas məqsədi yuxarıda qeyd edildiyi kimi, ölkədə sabit, dinamik sosial-iqtisadi inkişafı təmin etmək əsasında, onun təhlükəsizliyini hər vasitə ilə qoruyub saxlamaqdan ibarətdir.

Bu mühüm strateji istiqamətlərdə ən əsas yeri milli iqtisadiyyatın inkişafı ilə bağlı milli mənafe problemləri tutur. Məhz bu səbəbdən bizə belə gəlir ki, milli iqtisadiyyatın inkişaf strategiyası milli zəmində formalaşmaqla bir biri ilə əlaqədar olan aşağıdakı mühüm prosesləri əhatə etməlidir:

- iqtisadiyyatın milli zəmində formalaşmasını və inkişafını;
- respublikanın milli sərvətlərindən, bütövlükdə sosial-iqtisadi

potensialından, tam və səmərəli istifadə etməklə, daxili bazarı əsasən yerli istehsal hesabına ödəməyi və ölkənin dünya iqtisadiyyatındakı mövqeyinin daha da möhkəmləndirilməsini.

Milli iqtisadiyyatın inkişaf strategiyası, daxili və xarici təhlükələrin öz vaxtında tənzimlənməsinə, istehsalın elmi-texniki inkişafının sürətləndirilməsinə, yoxsulluğun aradan qaldırılmasına istiqamətləndirilməlidir.

V.Medvedyevin tədqiqatlarında Rusiyanın iqtisadi təhlükəsizlik vəziyyətinin qiymətləndirilməsi ölkənin milli təhlükəsizliyi anlayışının ölkədə elə bir vəziyyətin şərhinə əsaslanır ki, bu zaman köklü milli dövlətçilik maraqlarına və ölkənin mövcudiyyətinə qarşı yönələn təhlükələrin aradan qaldırılması, yaxud da neytrallaşdırılması təmin olunur. Daxili və xarici səbəblərdən belə təhlükələr cəmiyyətin həyatının ən müxtəlif sahələrində və sferalarında meydana çıxa bilər. Məhz buradan milli təhlükəsizlik anlayışının bəzi mühüm məqamları üzə çıxır. V.Medvedyevin fikrincə, iqtisadi təhlükəsizliyin prioritetlərinin müəyyənləşdirilməsi siyasi konyukturanın maraqlarından, ideoloji təsəvvürlərdən, siyasi spekulyasiyalardan azad olmalıdır. Çünki bu prioritetlər real problemlərin kəskinliyini, onların ölkənin mövcudluğu üçün əhəmiyyətini əks etdirməli, dövlətin iqtisadi siyasətində onların yerini əsaslandırmalıdır. Bu zaman sözü gedən prioritetlərin iqtisadi inkişafın bütün sferalarını əhatə etməsi vacib deyil [4, 3].

Bu zaman iqtisadiyyatın mütərəqqi perspektiv strukturunun formasında xarici və daxili investisiyaların daha da gücləndirilməsi, iqtisadiyyatda optimal yığım və istehlak nisbətlərinin müəyyənləşdirilməsi, iqtisadi inkişaf strategiyasının əsas istiqamətləri kimi qiymətləndirilməlidir.

Burada insan amilinə ancaq işçi qüvvəsi kimi deyil, ümumilikdə cəmiyyətin təhlükəsizliyinin tənzimləyicisi kimi baxılmalıdır.

İnkişaf etmiş dünya ölkələrinin təcrübələri göstərir ki, elmi-texniki tərəqqinin sürətləndirilməsi, yeni istehsal texnologiyasının geniş tətbiqi, əsas fondların ardıcıl olaraq yeniləşdirilməsi milli iqtisadiyyatın dinamikliyinə əsaslı təsir göstərir.

Məlum olduğu kimi, iqtisadiyyatda bölgü nisbətləri maddi istehsal nisbətlərindən törənir və ilk növbədə sadəcə belə bir həqiqətə görə, yalnız nə istehsal edilmişsə onu bölüşdürmək, onu istehlak etmək mümkündür.

Nisbət bölgü münasibətlərinin əsasıdır ki, burada ölkənin ümumi daxili məhsulu və xüsusilə də onun mili gəliri istehlak və yığım fondlarına bölünür.

Milli iqtisadiyyatın inkişaf strategiyasında bu nisbətə son dərəcə əhəmiyyət verilməsi buradan irəli gəlir. Bu onunla əlaqədardır ki, bir tərəfdən istehlak fondunun həcmi əhalinin real gəlirlərinin artmasının iqtisadi həddini əmələ gətirir, bununla əhalinin həyat səviyyəsinin miqyasını və yüksəlmə tempini qabaqcadan müəyyənləşdirir.

Digər tərəfdən, yığım fondunun həcmi növbəti təkrar istehsal tsiklində istehsalın və xidmət sahələrinin genişlənməsinin potensial imkanlarını şərtlən-

dirir. İstehlakın və yığımın səviyyələri bir-biri ilə üzvi surətdə əlaqədardır.

Milli gəlirin müəyyən hissəsini və buna uyğun olan məhsulun natura şəklində toplanmasını təmin etmədən istehlakın fasiləsiz artımını təmin etmək qeyri-mümkündür.

K.Marks yazmışdır: «Yığım olması üçün gərək izafi məhsulun bir hissəsi kapitala çevrilsin». Marks həqiqi yığımı istehsalın həqiqi genişləndirilməsi ilə mahiyyətcə eyniləşdirərək qeyd etmişdir ki, «izafi dəyər istehsalı metodlarının hamısı eyni zamanda yığım metodlarıdır».

Beləliklə, milli gəlirdə istehlak fondu ilə yığım fondunun optimal şəkildə əlaqələndirilməsinin tənzimlənməsinin prinsipial problemlərindən biri müasir bazar iqtisadiyyatı şəraitində milli iqtisadiyyatın inkişaf strategiyasında düzgün, səmərəli istiqamətlərin müəyyənləşdirilməsi və reallaşdırılmasıdır. Onu da qeyd etmək lazımdır ki, istehlakla yığım fondları arasındakı problem heç də birdəfəlik, həmişəlik həll edilən problem deyildir. Belə ki, o yeni imkanlara və tələblərə uyğun olaraq dəyişir və dəyişməlidir.

Dövlət əhalinin rifahını daha da yüksəltmək istiqamətlərində geniş tədbirlər proqramında əhalinin pul gəlirlərinin artmasına xüsusi əhəmiyyət verir.

MDB məkanında, bir çox iqtisadçıların qeyd etdiyi kimi iqtisadi islahatların aparıldığı dövrdə sosial qeyri-bərabərlik əhəmiyyətli dərəcədə kəskinləşmişdir. Təbəqələşmənin yüksək səviyyəsi sosial sabitlik və tərəqqinin təminatçısı olan, eləcə də vətəndaşlıq cəmiyyəti institutlarını qərarlaşdıran orta sinif təbəqəsinin əhəmiyyətli dərəcədə çatışmaması ilə müşayiət olunur. Transformasiya dövrünün əvvəlində orta gəlirlərə (yerli standartlara görə) malik olan və cəmiyyətdə sabitləşdirici rol oynayan bir çox peşə qruplarının nümayəndələri (həkimlər, təhsil işçiləri, alimlər, mühəndislər) bu gün əksər hallarda «yeni yoxsullar» arasında yer almışdırlar. Yoxsulluq və sosial bərabərsizlik problemlərini müəyyən dərəcədə dövlətin sosial təminat orqanları yumşaltmağa çalışırlar, məhz bu orqanların vasitəsilə yoxsullara yardım proqramları həyata keçirilir.

Beləliklə, ölkənin milli iqtisadi inkişaf strategiyası ümumilikdə istehsalın və onun əsası olan elmi-texniki tərəqqinin sürətlənməsini təmin etməklə, sosial-iqtisadi sabitliyin təmin edilməsi, ölkənin ərazi bütövlüyünün qorunmasına imkan verən iqtisadi inkişaf səviyyəsini təmin etməlidir.

L.Fon Tezau iqtisadi güc və iqtisadi təhlükəsizlik arasında iqtisadi təhlükəsizlik və iqtisadi siyasət sahəsində qarşıya qoyulan məqsədlərə çatmaq imkanları arasında iqtisadi təhlükəsizliyə qarşı yönələn təhdidlər və milli mənafelərə qarşı yönələn təhdidlər arasında fərqləndirmənin aparılması zərurətini qeyd etmişdir. Ümumilikdə o, V.Xaqer tərəfindən iqtisadi təhlükəsizliyə verilən şərhə tərəf meyl edir. Yəni iqtisadi təhlükəsizlik o zaman təhlükə altında olur ki, xarici iqtisadi parametrlərin dəyişməsi əlverişli iqtisadi sistemi dağıtmaq iqtidarında olsun [6, 15].

Milli iqtisadi inkişafın və onun təhlükəsizliyinin təmin edilməsində dövlət strategiyası qanunverici icraedici orqanlar. məhkəmə. ictimai və digər mü-

vafiq birliklər sistemi vasitəsilə həyata keçirilir.

Milli iqtisadiyyatın inkişaf strategiyasında investisiyaların iqtisadiyyatın daha prioritet sahələrinə yönəldilməsi maliyyə resurslarının sosial-iqtisadi sahələr arasında daha məqsədəuyğun bölüşdürülməsi, xarici əməliyyatların stimullaşdırılması təmin edilməlidir.

İqtisadi inkişaf strategiyasında mühüm yerlərdən birində dövlətin regionların sosial-iqtisadi inkişafına diqqətinin daha da artırılması durur.

Düzdür, son zamanlar ölkə regionlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə uyğun olaraq kompleks proqramların həyata keçirilməsinə başlanmışdır.

Bunun üçün ölkənin iqtisadi inkişaf strategiyasında regionlarda əmək tutumlu iqtisadiyyat sahələrinin sürətli inkişafı nəzərdə tutulmaqla bərabər, yerlərdə kənd təsərrüfatı xammalı emaledici sənaye sahələrinin təşkilinə xüsusi yer və əhəmiyyət verilməlidir.

Bununla belə, hər bir regionda mövcud olan yerli xammallardan, təbii resurslardan tam və səmərəli istifadə edilməsini həyata keçirmək lazımdır.

Azərbaycanın iqtisadi təhlükəsizliyi strategiyası fərdin, cəmiyyətin və dövlətin mühüm iqtisadi maraqlarına təhlükə yarada bilən amilləri, qısa və ortamüddətli perspektivdə ölkənin sosial-iqtisadi sisteminin dayanıqlığına təhlükə törədə bilən faktorların müəyyənləşdirilməsini və monitorinqini, iqtisadi sahədə milli maraqları şərtləndirən və iqtisadi təhlükəsizliyin tələblərinə cavab verən kriteriya və parametrlərin müəyyənləşdirilməsini öz məzmununda ehtiva edir.

Göründüyü kimi, siyasi, milli və iqtisadi təhlükəsizlik strategiyalarının hər biri uzunmüddətli məqsədin həyata keçirilməsini əks etdirir. Hər bir subyekt həmin məqsəd reallaşandan sonra strategiyada dəyişiklik edir [10, 94].

İqtisadi və beynəlxalq münasibətlər çox mürəkkəb və dəyişkən olduğundan milli və iqtisadi təhlükəsizlik strategiyasında məqsədin həyata keçirilməsinə təsir göstərən amillərin hamısını əks etdirmək mümkün deyil. Təbii amillər də buna mühüm təsir göstərir. Çünki bir neçə il sonra təbiətdə nə kimi hadisələr baş verməsini demək çətindir. Bununla əlaqədar olaraq, hər bir dövlət özünün milli və iqtisadi təhlükəsizlik konsepsiyalarını işləyib hazırlayır, başqa sözlə, problemin həllinə öz baxışlarını müəyyənləşdirir. Burada milli və iqtisadi strategiyalarda qarşıya qoyulmuş məqsədlərin reallaşmasının imkan və vasitələri dəqiqləşdirilir, müasir dövrə uyğun gəlməyən hədəflər çıxarılır, reallıqlar nəzərə alınır. Deməli, milli və iqtisadi təhlükəsizlik anlayışları bir biri ilə qarşılıqlı əlaqədə olduğu kimi, iqtisadi təhlükəsizlik və iqtisadi konsepsiya da biri digərindən yaranır və ona xidmət edir. Başqa sözlə, iqtisadi təhlükəsizlik milli təhlükəsizliyin reallaşmasını şərtləndirdiyi kimi, konsepsiya da iqtisadi təhlükəsizliyin təmin olunmasına xidmət edir.

İqtisadi inkişaf strategiyasının reallaşması mexanizmlərinə sistemli yanaşmaqla bərabər, yeniləşmə şəraitinə, qarşıda duran vəzifələri adekvat, ölkədə sosial-iqtisadi inkişafın sürətləndirilməsini reallaşdıran dinamik bir pro-

ses kimi yanaşmaq lazımdır.

Odur ki, iqtisadi inkişaf strategiyasında iqtisadi təhlükəsizliyin tənzimlənməsində dövlətlərarası iqtisadi əlaqələrdə milli mənafelərin düzgün və səmərəli həllinə xüsusi əhəmiyyət verilməlidir.

## ƏDƏBİYYAT


1. Маглакемидзе Т. Технологическая безопасность и охрана интеллектуальной собственности в переходной экономике Грузии // Журнал «Финансы и кредит», №9 (123), 2003, с. 76-79.
2. Степашин СВ. Экономическая безопасность Российской Федерации. Учебник // Под об. ред. М.: СПб, 41, 608с, 42, 639 с.
3. Прохоренко И.Л. Национальная безопасность и баланс. Баланс сил в мировой политике - теория и практика. М.: 1993, с. 70.
4. Медведев В. Проблемы экономической безопасности России // Вопросы экономики, №6, 1997, с. 3.
5. «Основы экономической теории: политэкономический аспект». Учебник (отв.ред. Климко Г.Н.). Киев: Знания-Пресс, 2001, с. 68.
6. Загашвили В. Национальная экономическая безопасность / Обществ.науки и современность. 1995, №2, с. 15 .
7. Экономическая безопасность, Финансы-Банки. Под редак. академика В.К.Сенрадова, М.: İnfra, 1998, 340 с.
8. Tanrıverdi Əhməd Paşa. Regionların iqtisadi inkişafının dövlət tənzimlənməsinin başlıca problemləri, Bakı: AMEA, 2005, 187 s.
9. Məhərrəmov A., Aslanov H. Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi. Bakı: Zərdabi LTD MMC Nəşriyyat poliqrafiya müəssisəsi, 399 s.
10. Heydərov K., İbrahimov T. Gömrük işi – iqtisadi suverenlik və təhlükəsizlik, Bakı: Səda nəşriyyatı, 1999, 178 s.


## ЭКОНОМИЧЕСКАЯ БЕЗОПАСНОСТЬ – ОСНОВНОЕ ДОСТИЖЕНИЕ ГОСУДАРСТВЕННОЙ НЕЗАВИСИМОСТИ АЗЕРБАЙДЖАНА


**Г.Г.АСЛАНОВ, Н.И.АЛИЕВА**


### РЕЗЮМЕ


Экономическая безопасность государства главное достижение независимости. Важной частью экономической независимости является экономическая безопасность. Экономическая безопасность такое состояние экономики, при котором обеспечивается экономический рост, общественные потребности, высококачественное управление, защита экономических интересов на национальном и международном уровне.

Проблема экономической безопасности образуется вместе с образованием государства и представляет собой основу национальной системы безопасности. Главные показатели экономической безопасности -рост ВВП, структура экономики, зависимость от импорта, уровень внешней и внутренней задолженности и т.д, а также другие вопросы были подробно отражены в статье.



**Ключевые слова:** экономическая безопасность, национальные интересы, экономическая политика, национальная экономика, национальное экономическое развитие

## THE ECONOMIC SECURITY OF THE STATE IS THE MAIN ACHIEVEMENT OF INDEPENDENT AZERBAIJAN

**H.H.ASLANOV, N.İ.ALIYEVA**

### SUMMARY

The economic security of the state is a major achievement of independence. An important part of economic independence is economic security. Economic security is the condition of the economy that provides the economic growth, social needs, quality management, protection of economic interests at national and international levels etc. The problem of economic security emerges alongside with the establishment of the state and represents the foundation of national security. The main indicators of economic security - growth of GDP, economic structure, dependence on import, the level of external and domestic debt as well as other issues are precisely reflected in the article.

**Key words:** Economic security, the national interest, economic policy, national economy, national economic development